# Ümumtəhsil məktəblərinin 2017-2018-ci dərs ilinə aid tədris planlarının təsdiqi haqqında

## Azərbaycan Respublikası təhsil nazirinin əmri

Ümumi təhsil müəssisələrində təhsil prosesinin təşkili və tənzimlənməsini təmin etmək məqsədilə "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 8.10-1-ci və 13.5-ci bəndlərini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikasının tədris Azərbaycan, rus, gürcü dillərində aparılan, ləzgi dili və azsaylı xalqların dilləri öyrədilən ümumtəhsil məktəbləri üçün 2017-2018-ci dərs ilinə aid aşağıdakı tədris planları və "Tədris planlarına dair qeydlər" təsdiq edilsin:

1.1. Ümumtəhsil məktəblərinin I-X sinifləri üçün tədris planları (1, 2, 3 nömrəli əlavələr);

1.2. Ləzgi dili öyrədilən ümumtəhsil məktəblərinin I-X sinifləri üçün tədris planları (4, 5 nömrəli əlavələr);

1.3. Ümumtəhsil məktəblərinin XI sinifləri üçün tədris planları (6, 7, 8 nömrəli əlavələr);

1.4. Azsaylı xalqların dilləri öyrədilən ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün tədris planları (9, 10 nömrəli əlavələr);

1.5. "Tədris planlarına dair qeydlər" (11 nömrəli əlavə).

**2.** Ümumi və məktəbəqədər təhsil şöbəsi (A.Əhmədov) və Maliyyə şöbəsi (R.Orucov) tədris planlarının çap olunub vaxtında yerlərə çatdırılmasını təmin etsinlər.

**3.** İnformasiya şöbəsi (E.Əliyev) bu əmrin əlavələrlə birlikdə "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını və Nazirliyin internet saytında yerləşdirilməsini təmin etsin.

**4.** Əmrin icrasına nəzarət nazir müavini Ceyhun Bayramova həvalə olunsun.

**Mikayıl CABBAROV,**
**Azərbaycan Respublikasının**
**təhsil naziri**

*28 iyul 2017-ci il*